**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2025.1.29**

**ŞAHANƏ MƏMMƏDOVA (KÖÇƏRLİ)***

# "MƏŞƏL" SATİRİK JURNALINDA İCTİMAİ-SİYASİ VƏ SOSİAL MƏSƏLƏLƏRİN BƏDİİ İNİKASI

*XX əsrin əvvəllərində satirik mətbuatda tez-tez gündəmə gətirilən mövzulardan biri fəhlələrin ağır və zəhmətli həyat şəraiti və mübarizələrinin əksi idi. Digər satirik jurnallardan siyasi məsələlərə daha geniş yer verməsi ilə seçilən "Məşəl" satirik jurnalı fəhlə sinfinin ağır həyat şəraiti və mübarizəsinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurulmasından sonrakı mərhələsini əks etdirməyə çalışırdı. Lakin jurnal məsələyə birtərəfli yanaşaraq AXC hökumətinin bu sahədə həyata keçirməyə çalışdığı tədbirləri, Müsavat Partiyasının bəyannaməsini heçə sayır və onu düzgün qiymətləndirmirdi.*

*"Məşəl"də dünyada baş verən siyasi hadisələr əks olunur, ABŞ, İngiltərə, Fransa kimi imperialist dövlətlərin müstəmləkə siyasətinin iç üzü aşkara çıxarılırdı. Bu satirik jurnalda tez-tez tənqid obyektinə çevrilən məsələlərdən biri də çar generalı Denikinin "vahid və bölünməz Rusiya" şüarı ilə Cənubi Qafqazın müstəqil dövlətləri ilə mübarizəsi idi. Çar generalı Denikinə qarşı tənqidi mövqe jurnalın bolşevizm ideyalarını təbliğ etməsi ilə bağlı idi. Jurnalda kəndli-mülkədar münasibətləri, torpaq məsələsi, qoçuların özbaşınalığı, rüşvətxorluq, soyğunçuluq kimi hadisələrə tənqidi münasibət, mollaların çirkin əməllərinin ifşası, ölkədəki bahalıq və möhtəkirlərin tənqidi, İran və Gürcüstan kimi qonşu ölkələrdə baş verən hadisələrin işıqlandırılması və s. məsələlərə yer verilmişdir.*

***Açar sözlər:*** *"Məşəl" jurnalı, satirik mətbuat, Azərbaycan Xalq Cümhuriyyəti, ədəbiyyat, sosial məsələlər*

## Giriş

XX əsrin əvvəllərində "Molla Nəsrəddin" satirik jurnalının təsiri ilə nəşr olunan jurnallardan biri də ictimai-siyasi və sosial məsələləri geniş şəkildə əks etdirən "Məşəl" satirik jurnalı idi. "XX əsr Azərbaycan satirik jurnallarının və ümumiyyətlə, satirik ədəbiyyatın təsir dairəsi çox geniş olmuşdur. "Molla Nəsrəddin" və başqa satirik orqanlar geniş miqyasda, xüsusilə Orta və Yaxın Şərqdə yayılmış, həmin ölkələrin mətbuat və ədəbiyyatına müsbət təsir göstərmişdir" [1, s.5-6].

## Əsas məzmun

XX əsrin əvvəllərində satirik mətbuatda tez-tez gündəmə gətirilən mövzulardan biri fəhlələrin ağır iş rejiminin yüngülləşdirilməsi və onlar üçün təhlükəsiz iş mühitinin yaradılması, məvaciblərinin qaldırılması kimi məsələlərin təbliği, fəhlələrin ağır, zəhmətli həyat şəraiti və mübarizələrinin əksi idi. Çıxış yolunu hökumət və sahibkarlara qarşı nümayiş və tətillərdə görən fəhlələrin məşəqqətli güzəranını əks etdirən satirik jurnallar qeyd olunan məsələləri gündəmə gətirməklə, fəhlə sinfinin öz haqları uğrunda azadlıq mübarizəsini dəstəkləyirdilər. "Mollanəsrəddinçilər içərisində yaşadıqları cəmiyyətdə baş verən ictimai hadisələri çevrələməklə məhdudlaşmır, eyni zamanda xalqın ağır və məşəqqətli yaşam tərzini, sosial problemlərini ön plana çəkir, onlara mövcud situasiyadan çıxmağın yollarını göstərərək məsələləri ictimai-siyasi müstəviyə qaldırırdılar" [2, s.26].

"Məşəl" satirik jurnalının 3-cü nömrəsinin ilk səhifəsində (15 dekabr 1919) "Sərgərdan" imzası ilə verilmiş satirik şeirdə fəhlələrin ağır güzəranının aydın təsviri verilmişdir. M.Ə.Sabirin fəhlə mövzusunda yazılmış əsərlərinin təsirinin aydın duyulduğu şeirdə sahibkarın dilindən fəhləyə müraciət olunaraq deyilir:

Səni Allah yaradıb varlı üçün işləməyə,
Boş xəyal ilə gəlib başlama fors eyləməyə!
Necə cürət ediyorsan belə söz söyləməyə?!
Eyləmə tay özünü bəylər ilə xanlara sən,
Pulluya, varlıya, dövlətliyə, əyyanlara sən!

[3, s.28]

Şeirdə sahibkarların fəhlələri çöldəki heyvanlara bərabər tutmasıyla, ac-susuz qalaraq ahü fəğan edən fəhlələrin üzləşdiyi acınacaqlı tale və gününü əyləncə məclislərində keçirən dövlətli bəylərin qarşılaşdırılması təzad yaradır.

"Məşəl"in 4-cü nömrəsində (30 dekabr 1919) fəhlə məişətinin ironik şəkildə təsviri onların məşəqqətli həyatını göz önündə canlandırırdı: "...fələlərin əhvalı getdikcə yaxşılaşmışdır. Hər bir fələ bir xozein olmuşdur. Toxluqdan aclıq xəstəliyinə düçar olmuşlar. Evləri iki mərtəbə olduğuna görə üfunət-falan yoxdur. Ancaq o qədər rütubətdir ki, fələ sabah yuxudan durduqda döşəkdən qalxa

bilməyib, beş-on gün yataqdan sonra pasportsuz o dünyaya müşərrəf olur. Bu axır zamanlarda o qədər ət-falan yemişlər ki, canları qotur olmuşdur” [3, s.44]. Digər satirik jurnallardan siyasi məsələlərə daha geniş yer verməsi ilə seçilən “Məşəl” satirik jurnalı fəhlə sinfinin ağır həyat şəraiti və mübarizəsinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurulmasından sonrakı mərhələsini əks etdirməyə çalışırdı. Lakin jurnal məsələyə birtərəfli yanaşaraq AXC hökumətinin bu sahədə həyata keçirməyə çalışdığı tədbirləri, Müsavat Partiyasının bəyannaməsini heçə sayır və onu düzgün qiymətləndirmirdi. “...“Şeypur”, “Məzəli”, “Babayi-Əmir” kimi məcmuələrdə fəal iştirak edən milli düşüncəli qələm adamları Qırmızı Qələm Cəmiyyəti və onun “Məşəl” satirik jurnalı ilə əməkdaşlığa üstünlük vermirdilər. Çünki bu jurnal qırmızıqələmçilərin “xalqa xidmət”də yanıldıqlarını, Azərbaycanın istiqlalına və müstəqilliyinə qarşı ironik münasibətlərini müşahidə edirdi” [4, s.11].

Tarixdən məlum olduğu üzrə, AXC hökuməti paytaxtı Bakıya köçürtdükdən sonra dövlətin sosial və iqtisadi siyasətində əhəmiyyətli rol oynayan fəhlə məsələsinin həllinə başlayır. Fəhlələrin vəziyyətinin ağır olduğunu anlayan hökumət nümayəndələri vəziyyətdən çıxış üçün müəyyən tədbirlər həyata keçirməyə çalışır. Müsavat Partiyasının bəyannaməsində fəhlələrin iş saatının 8 saatdan çox olmaması, qanunla həftədə 24 saatlıq istirahət gününün müəyyənləşdirilməsi, iş qabiliyyətini itirmiş fəhlələr üçün xüsusi sığorta fondunun yaradılması kimi məsələlər əks olunurdu. Lakin sənaye müəssisələri üzərində xüsusi mülkiyyət hüququnun saxlanılması fəhlə məsələsində ciddi dəyişikliklərin həyata keçirilməsini çətinləşdirirdi. Vəziyyətin belə olduğunu görən AXC Parlamentinin sosialistlər fraksiyası isə fəhlələr arasında təbliğat apararaq, onları tətil və nümayişlər keçirməyə təhrik edirdilər. AXC hökumətinə qarşı pozuculuq siyasəti yeridən sosialistlər fraksiyası Sovet Rusiyası ilə birləşməyi təbliğ edirdilər. Siyasi istiqaməti etibarilə bolşevizm ideyalarını təbliğ edən “Məşəl” satirik jurnalı da AXC Parlamenti, Müsavat Partiyası və onun üzvlərini haqsız olaraq tənqid etmiş və xalq arasında nüfuzdan salmağa çalışmışdır. Sovet Rusiyasının işğalçılıq siyasəti yeritdiyi bir dövrdə vahid düşmənə qarşı birgə mövqedən çıxış etmək əvəzinə, AXC hökumətinə qarşı pozuculuq siyasəti yeritməsi və kinayə dolu yazılar nəşr etdirməsi jurnalın mənfi və nöqsanlı tərəfi idi. “Məşəl”in təbliğ etdiyi yolu və ideyanı aydın izah edən professor Nazim Axundov yazırdı: “Məşəl” publisist məqalə və felyetonlarında bolşeviklərin qələbəsini, Sovet hökumətinin möhkəmlənməsini arzulayır, onu hərtərəfli müdafiə edirdi” [1, s.120].

“Məşəl”də dünyada baş verən siyasi hadisələr əks olunur, ABŞ, İngiltərə, Fransa kimi imperialist dövlətlərin müstəmləkə siyasətinin iç üzü aşkara çıxarılırdı. Məlum olduğu kimi, Mudros sülhünün şərtlərinə əsasən, Osmanlı dövləti öz ordusunu Cənubi Qafqazdan çıxardıqdan sonra Azərbaycanda yerləşdirilən ingilis qoşunlarının komandiri U.Tomson AXC hökumətini Azərbaycan hüdudlarında yeganə qanuni hakimiyyət orqanı kimi tanımışdır. Lakin ingilis general-qubernatorluğu ölkənin ictimai-siyasi və iqtisadi həyatının bütün sahələrinə müdaxilə etməklə ikihakimiyyətlilik yaradırdı. İngiltərənin AXC hökumətinə qarşı məkrli siyasəti jurnalın 2-ci nömrəsində (5 dekabr 1919-cu il) verilmiş “Tartan-partan” adlı felyetonda ifşa olunurdu. M.Ə.Sabirin şeirindən “Mən belə əsrarı qana bilmirəm...” misrasının epiqraf gətirildiyi felyetonda İngiltərənin müxtəlif donlara girərək işğalçılıq siyasəti yeritməsi və xalqların taleyi ilə oynamasına istehza olunurdu: “Gedim İngiltərə hökumətinin donu ilə girim, hər millətə deyim: “Qardaş, sənin istiqlaliyyətini qəbul edirəm”, – daldan isə həmən millətlər üçün öylə dərin quyular qazım ki, ora düşdükdən sonra heç Əflatun özü gəldikdə, onları xilas edə bilməsin. Məsəla: Azərbaycana, Gürcüstana, Dağıstana gündə bir düdək verməyə: biz sizin istiqlaliyyətinizi tanıyırıq. O biri tərəfdən Denikini silahlandırıb, bu millətlərin canına salım. İş bir balaca yoğunlaşanda çəkilim, əgləşim Batumda. Başlayım oradan bu millətlərin tökülən göz yaşlarına, axan qan yerinə qəhqəhə ilə baxım. Əlbəttə, bu yol yaxşı yoldur” [3, s.20]. Yuxarıdakı nümunədən aydın olur ki, bir tərəfdən yenicə müstəqil olan dövlətlərə onların istiqlaliyyətini qəbul etdiyini bildirən İngiltərə hökuməti, digər tərəfdən çar generalı Denikinə hərbi ləvazimatlar göndərərək, onu bu dövlətlərə qarşı hücuma hazırlayır və beləliklə öz üstünlüyünü qoruyurdu. İngiltərənin Azərbaycan və Gürcüstana qarşı “səmimi” münasibəti “Məşəl”in 3-cü nömrəsində verilmiş “Teleqraf xəbərləri”ndə İngiltərənin xarici işlər naziri tərəfindən Denikinə göndərilmiş teleqrafda ifşa olunurdu: “Təcili şəkildə Denikinə: “Sən ürəyini sıxma. Var qüvvəmiz ilə sənə kömək etməliyik! Göndəririk 30 paraxod, top, tüfəng, fişəng, hərbi ləvazimat. Haydı, qoçaq oğlum!” [3, s.29]

Jurnalın 6-cı, yəni sonuncu nömrəsində isə (6 mart 1920) Kərbəlayi Yaftuməlinin Böyük Britaniyanın həmin dövrdəki baş naziri D.Llyod Corcla olan söhbəti verilir. Kərbəlayi Yaftuməli

Llyod Corcdan Azərbaycanın istiqlaliyyətinə olan münasibətini soruşduqda, baş nazirin cavabı belə olur: "Degilən mənim dilimdən əziz və möhtərəm olan Azərbaycan camaatına ki, mən onları lap cani-dildən sevirəm. Neçin ki biz türklərin istiqlaliyyətini qəbul etdik, camaata degilən ki, çox darıxmasınlar, lazım gələr isə, onların məqullarından ötəri bir az da əsgər göndərərik" [3, s.60].

Jurnalın 1-ci nömrəsində (13 noyabr 1919-cu il) verilmiş "Teleqraf xəbərləri"ndə ABŞ prezidenti V.Vilsonun Birinci dünya müharibəsinə son qoymaq məqsədilə sülh prinsipləri haqqında tərtib olunmuş 14 maddəlik bəyanatında irəli sürdüyü xalqların öz müqəddəratını təyinetmə prinsipinin ziddiyyətli tərəfləri ifşa olunurdu: "14 maddəli məramnaməyə görə, Türkiyə və İrana istiqlaliyyət verməkdən ötəri ingilislər qərar qoymuşlar ki, bu iki millətin həddi-büluğa yetişmədiklərinə görə bunlara Fransanı və frənkləri qəyyum təyin etsinlər" [3, s.4].

"Məşəl"də tez-tez tənqid obyektinə çevrilən məsələlərdən biri də çar generalı Denikinin "vahid və bölünməz Rusiya" şüarı ilə Cənubi Qafqazın müstəqil dövlətləri ilə mübarizəsi idi. Həmin dövrdə Cənubi Qafqaz dövlətləri, o cümlədən AXC üçün təhlükə və təhdid mənbəyinə çevrilən çar generalı Denikinə qarşı tənqidi mövqe jurnalın bolşevizm ideyalarını təbliğ etməsi ilə bağlı idi. Jurnalın 2-ci nömrəsində nəşr olunmuş "Teleqraf xəbərləri"ndə Denikinlə yanaşı ABŞ prezidenti V.Vilson və onun müttəfiqlərinin ikiüzlü siyasəti ifşa olunurdu: "Denikin, xalaoğlu, qoyma, nə dayanmısan, haydı! Nə istiqlaliyyət, istiqlaliyyət deyə-deyə bu Zaqafqaziya millətləri çığır-bağır edirlər, bu zalımların səslərini kəsməzsənmi?! Göndərdik sənə yarım milyard pul, yüz paraxod, hərbi ləvazimat. Sənin xalaoğulların: Vilson, Luyid Corc və Klemanso"[3, s.17].

Parisdən gizli olaraq Denikinə göndərilən bu teleqramda V.Vilsonın gizli diplomatiyadan imtina edilməsi prinsipinin həqiqətdən uzaqlığı gülüş doğururdu.

"Məşəl"də ABŞ prezidenti V.Vilsonun AXC nümayəndə heyəti ilə görüşü məsələsinə də toxunulmuşdur. Məlum olduğu kimi, 1919-cu il mayın 28-də baş verən görüşdə AXC nümayəndə heyətinin tələbləri V.Vilson tərəfindən rədd edilmiş və Azərbaycanın istiqlaliyyətinin tanınması məsələsi açıq saxlanılmışdır. Lakin sosializmi təbliğ edən jurnal bu məsələyə, təəssüf ki, ironik şəkildə yanaşmışdır: "Azərbaycan istiqlaliyyəti Corc, Vilson tərəfindən təsdiq olunmaqdadır. Rəsmi xəbər: Tiflisdə bulunan İngiltərə komandanlığının nümayəndəsi söyləmiş" [3, s.17].

"Məşəl"də əksini tapan məsələlərdən biri də erməni vandallarının Azərbaycanın müxtəlif bölgələrində törətdiyi vəhşiliklərin təsdiqi məsələsi idi. Jurnalın 6-cı nömrəsində verilmiş "Tartan-partan" adlı felyetonda müxtəlif firqə nümayəndələrinin toplaşdığı bir iclasın təsviri verilir. İclasda azərbaycanlılarla dostluq münasibətindən dəm vuran erməni daşnakına Kərbəlayi Yaftuməlinin sərt cavabı məsələyə aydınlıq gətirir: "Ay daşnak, sən ki böylə danışırsan, bir de görüm Zəngəzurda, Qarsda, Ərdahanda, Naxçıvanda qan tökənlər də bolşeviklər olmuşlar, yoxsa siz daşnaklarsınız?" [3, s.64]

Bolşevizm ideyalarını təbliğ edən "Məşəl"in baş vermiş qanlı hadisələrdə bolşeviklərin rolunu inkar etməsinə baxmayaraq, tarixi faktlar soyqırımın erməni daşnak-rus bolşevik qüvvələrinin birgə iştirakı ilə törədildiyini sübut edir**.** "Erməni daşnaklarının və rus imperiyasının qanlı əlləri ilə törədilən bu faciələr o dövrün mətbuat orqanlarında, xüsusilə də "Molla Nəsrəddin" jurnalında geniş şəkildə əksini tapmışdır" [5, s.114].

"Məşəl" jurnalı İran, Gürcüstan, Türkiyə kimi qonşu dövlətlərin siyasi həyatında baş verən hadisələrə də toxunur, bu ölkələrdə baş verənləri müəyyən qədər işıqlandırmağa çalışırdı. Jurnal 1919-cu ildə Böyük Britaniya ilə İran arasında bağlanan sazişə işarə edərək İran şahının öz vətəninə laqeyd münasibətinə gülürdü: "Eşitdiyimizə görə, Londonda olan İran şahı ziyafət məclisində uzun-uzadı nitqdən məlum etmişdir ki, İran fəqət Qərbi Avropaya hökmranlıqdan İngiltərə əli ilə nicata yetişəcəkdir: «Buna görə də bən vətənimlə bərabər özümü bu xanımlar hüzurunda İngiltərə hökumətinə tapşırıb, bu badəni nuş ediyorum" [3, s.19].

Buradan da aydın olur ki, İran şahının uzun-uzadı nitq söylədiyi yer eyş-işrət məclisi, dinləyiciləri isə məclisdə əyləşən və baş verənləri anlamayan xanımlardır. Özünü vətəni ilə bərabər İngiltərəyə tapşıran şahı ölkəsinin vəziyyəti zərrə qədər maraqlandırmır. Əhalinin qanını zəli kimi soran şah ölkəni çoxdan müstəmləkəçilərə satmışdır:

Yenə vardır xəyalım qan içim, evlər edim viran,
Satam mülki-kəyanı Nəsrəddin, Məmdəlilərtək!
[3, s.25]

“Məşəl” jurnalında digər satirik jurnallar kimi tənqid obyektinə çevrilən məsələlərdən biri də xalqı soyan axund və mollaların çirkin əməlləri idi. Jurnalın 5 dekabr 1919-cu ildə nəşr olunmuş 2-ci nömrəsində “Mollalar ittifaqında” sərlövhəsi ilə verilmiş felyetonda qubalı Molla Hacıbabanın çıxışı mollaların əsl niyyətini ifadə edirdi: “Möhtərəm qardaşlar! İndi kəbin kəsib, ölü namazı qılmaqdan fayda olmuyor. Gündə biri ölüb və biri kəbin kəsdirəcək. Onların hərəsindən alacaqsan əlli manat. Gündə yüz manat ilə dolanmaq mümkün deyil. Bu dövlətli zəhrimarlar da nə ölürlər və nə toy edirlər. Çün onlar spikulyasiya ilə məşğuldurlar (Gəncəli Molla Qəvvam yerindən: “Düzdür! Doğrudur!” Gurultulu alqış). Biz gərək eylə iş görək ki, qaz vurub qazan dolduraq... Mən təklif edirəm hər şəhadətnaməyə 20 min manatdan əskik yazmıyın” [3, s.21].

Jurnalın yuxarıda qeyd olunmuş nömrəsində verilmiş “Poçt qutusu”nda “Zorba”ya ünvanlanmış yazıda isə mollaların əməlləri ümumiləşdirilirək, onlar müəyyən bir sinfə aid edilirdi: “Xəbər alırsan ki, mollalar, axundlar və əfəndilər boynuyoğunların cərgəsindədir, yainki qarnızorbaların?

Qardaş! Molla, axund və əfəndi deyilən şeylər eylədir ki, insanın həm ölüsünə, həm dirisinə lazım olur. İnsanı həm diri vaxtında sorur, həm də ölü vaxtında. Odur ki bunlara bir ad qoymaq olmaz. Onlar həm boynuyoğun və həm də zorbaqarındılar. Bu il də bu əsgər aparmaq ki ortalığa düşdü, bunlar özləri üçün üçüncü ad da qazandılar. O da boynuyoğun, zorbaqarın və möhtəkirdir (spikulyant)” [3, s.26].

Jurnalda həmçinin mədrəsələrdə verilən təhsilin gülüş doğuran nəticələrinə, mollaların bisavadlığına və hafizlik sənətinin “böyük”lüyünə istehza olunurdu: “Dərd odur ki, uzun gözlü olan və Molla Hacıbaba mədrəsəsində bir çox illər zəhmət çəkib sümük sındıran balaca kağızı da oxuya bilməyəsən. Burada deyirəm, sağ ol, hafiz! Hafizlik böyük sənət və böyük ustalıqdır. Nə görər, nə də savadı var. Amma bir çox şeyləri oxur. A kişilər, bu gün haqqında bir kağız almışam; nə oxuya bilirəm, nə də özgəsinə oxuda bilirəm...” [3, s.39]

“Məşəl”də inflyasiya ilə əlaqədar ölkədəki bahalıq, xalqın dərisini soyan möhtəkir və alverçilərin ifşası da mühüm yer tuturdu. Jurnalın 2-ci nömrəsində verilmiş “Sənətkarlar ittifaqında” adlı felyetonda ölkədə baş alıb gedən bahalıq və yoxsulların ağır vəziyyəti belə təsvir edilirdi: “Baqqallar ittifaqı hər şey bahalandığına görə tazə taqsa düzəltmişlər: soğan 12 manat (girvənkəsi), alma 15 manat, armud 14 manat, füqəra gönünü soymaq üççə manat” [3, s. 22].

Yenə həmin felyetonda “Çəkməçilər ittifaqında” başlığı ilə verilmiş bölmədə möhtəkirlərin xalqı necə aldatması, geyim üçün zəruri malların əhaliyə dəyərindən qat-qat baha satılması tənqid olunurdu: “Keçi gönündən tikilən şəpik 3000 manat, qoyun dərisindən tikilən 1000 manat, gomuş dərisindən 1500. Füqəra gönündən tikilən Bakı spekulyantlığından sor” [3,s. 22].

AXC hökumətinin sosial sahədə həyata keçirdiyi tədbirlər, inflyasiya ilə əlaqədar əhalinin müxtəlif təbəqələrinin maaşının artırılmasına baxmayaraq, günü-gündən ərzaq və geyim mallarının qiyməti daha da artır və nəticədə dövlətin pulu möhtəkirlərin sandıqlarına dolurdu: “Azərbaycan Parlamanı axırıncı iclasında 2 yüz milyon pul buraxılmaq qərara aldığına görə Əttarlar və Allaflar ittifaqı ümumi iclas çağırıb, bu buraxılan pullardan ötəri sənduq hazırlamaq qərara almışdır. Ona bərayi hər gün unun putuna 30 manat və qeyri şeylərin qiymətini 20 faiz artırmağı qərara almışlar. Bu qərardadın nəticəsi olaraq Azərbaycan Dövlət Bankı, şükür Allaha, boşalıb, Əllaflar və Əttarlar ittifaqının tərəfindən hazırlanmış sənduqlara dolmuşlar [3, s.22].

Göründüyü kimi, felyetonda ölkədəki bahalıq və əhalinin güzəranı dilə gətirilərək insaf və mərhəmətdən məhrum möhtəkirlər tənqid obyektinə çevrilmişdir.

“Məşəl”də tez-tez dilə gətirilən məsələlərdən biri də kəndli-mülkədar münasibətləri və torpaqların kəndlilərə paylanması məsələsi idi. Ağa və bəylərin kəndlilərə olan insanlıqdan kənar münasibəti, kəndlilərin əməyinin istismar olunması, qolugüclülərin haqsızlığına məruz qalması torpaq sahiblərinə qarşı nifrət hissi oyandırırdı. Jurnalın 30 dekabr 1919-cu ildə nəşr olunmuş 4-cü nömrəsindəki “Poçt qutusu”nda kəndliyə müraciət olunaraq kinayə ilə deyilirdi: “Həya-abrına lənət sənin, adam! Balam, ay kəndli, nə soxursan özünü araya?! Balam, sən bilmirsən ki, qəzetəmiz boynuyoğunların qəzetəsidir? Yazırsan ki, filan bəy məni belə döyür, belə əziyyət verir. Əcəb eliyir, əlinin içindən gəlir! Sənin zəhmətindən mənfəət bərdar olub. Yaranmısan onun ağzına baxmağa. Hünərin var, çıx ortalığa” [3, s.45].

“Məşəl”in nəşr olunduğu dövrdə Şimali Azərbaycanda kəndlilərin böyük əksəriyyətini kasıblar təşkil edirdi. “Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında

Parlamentə təqdim olunmuş Müsavat fraksiyasının və əkinçilik nazirliyinin mövqeyini əks etdirən qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi, müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi. Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

Müsavat fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz paylanması, digər qanun layihəsində isə müəyyən əvəz müqabilində verilməsi nəzərdə tutulurdu. Birinci qanun layihəsində əvvəlki sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə, yerli şəraitdən asılı olaraq, müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyənləşdirilmişdi" [6, s.57]. "Məşəl"in 5-ci nömrəsində "Binəva bəy" imzası ilə nəşr olunmuş "Torpaq məsələsi həll olunurdu" adlı satirik məqalədə torpaqların bir qisminin mülkədarların ixtiyarında saxlanılmasını nəzərdə tutan qanun layihəsinə ironik münasibət bildirilərək bir mülkədarın dilindən bu sözlər deyilirdi: "Allaha şükür, orada əkinlər hamısı biliyorlar ki, bəy və mülkədarlar ömürlərini sərbəsər müftəxorluqda keçirib! İndi onların əllərindən torpağı alıb rəiyyətə verdikdə bu bədbəxt mülkədarlar boyunlarına torba salmayacaqlar ki! Onlar da yaramaz ki, yaşasınlar? Əlbəttə, eylə ki qanun layihəsi ilə tanış oldum, gördüm ki, həqiqətdə əhvalat böylə imiş, yəni əkəcək yerlərini pul ilə alıb, özümüzə də yetmiş beş desyatin verəcəklər" [3, s.53].

Buradan da aydın olduğu kimi, Sovet hakimiyyətini təbliğ edən "Məşəl" və jurnalın redaktoru, "Binəva bəy" imzasının müəllifi Ə. Qarayev bu məsələyə də birtərəfli yanaşaraq, aqrar məsələnin həll olunmaması faktından istifadə edir və əhali arasında narazılığı artırmağa davam edirdi.

Jurnalın 4-cü nömrəsində "Ədibülhükəma" imzası ilə nəşr olunmuş satirik şeirdə ağa və bəylərin, kapitalistlərin əsl üzü ifşa olunurdu:

Bir parça çörək paylamarıq aclara əsla,
Axmaq deyilik rəhm eyləyək onlara bica!
Var milyonumuz, biz içəriz şampan və vodka,
Olsun niyə dərd ilə bəlamız bahalıqdan?!

[3, s. 37]

Qulam Məmmədlinin "İmzalar" kitabında verdiyi məlumata görə, "Ədibülhükəma" gizli imzası ilə "Məşəl"də çıxış edən müəllif Hacı Səlim Qasımzadə olmuşdur. Nümunə olaraq verilmiş şeirdə müəllif fəhlə və kəndlilərin mövqeyindən çıxış edərək, ağa və bəylərə dərin nifrətini nümayiş etdirmişdir.

**Nəticə**

"Məşəl"də Əhrar, İttihad kimi partiyaların fəaliyyətinə ironik münasibət, qoçuların özbaşınalığı, rüşvətxorluq, soyğunçuluq kimi hadisələrin tənqidi və s. məsələlərə də yer verilmişdir.

"Yüzdən artıq yazıçını, daha doğrusu, dövrün əksər ədəbi qüvvəsini əhatə edən XX əsr Azərbaycan satirik ədəbiyyatı şeir sahəsində Mirzə Ələkbər Sabir, nəsr sahəsində Cəlil Məmmədquluzadənin yaratdığı ədəbi məktəblər şəklində formalaşıb inkişaf etmişdir" [7, s.163]. Cəmi 6 nömrəsi çıxan "Məşəl" satirik jurnalı sosializm ideyalarını və Sovet hakimiyyətini təbliğ etməsinə baxmayaraq, XX əsr satirik mətbuatını və ədəbiyyatını araşdırmaq və öyrənmək baxımından əhəmiyyətli mənbə rolunu oynayır.

## ƏDƏBİYYAT

1. Nazim Axundov. "Azərbaycan satira jurnalları" (1906-1920-ci illər). Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı-1968.
2. Gülbəniz Babayeva. "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər. Bakı: "Elm", 2020, – 416 s. Mollanəsrəddinçi satiranın ideya qaynaqları
3. Vüqar Əhməd. Dilbər Rzayeva. "Məşəl" satirik jurnalı yeni əlifbada" (1919-1920). Bakı, "PrintMe", 2022, 80 səh.
4. İsmayıl. "Milli mətbuatımızın "Məşəl"i, "Tartan-partan"ı..." Şərq. – 2018. – 5 iyun. – s.11
5. Gülbəniz Babayeva. "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər. Bakı: "Elm", 2020, – 416 s. "Molla Nəsrəddin" jurnalında Qarabağ mövzusu

6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, “Lider nəşriyyat”, 2004, 440 səh.
7. Vüqar Əhməd. XX əsrin əvvəllərində ictimai-siyasi şərait və satirik mətbuat

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**Email: shahanakocharli89@gmail.com**

**Shahana Mammadova (Kocharli)**

## REFLECTİON OF POLİTİCAL AND SOCİAL İSSUES İN THE SATİRİCAL MAGAZİNE MASHAL (THE TORCH)

One of the themes frequently discussed in the satirical press at the beginning of the 20th century was the reflection of the difficult living conditions and struggles of workers. The satirical magazine *Mashal (The Torch),* which gave more space to political issues, tried to reflect the difficult living conditions and struggle of workers after the establishment of the government of the Azerbaijan People’s Republic. However, the magazine took a unilateral position, ignoring the measures the Azerbaijan People’s Republic was trying to implement and the declaration of the Musavat Party.

The magazine reflected political issues happening in the world and exposed the colonial policies of imperialist states such as the USA, England, and France. One of the issues frequently criticized in the magazine was Tsarist General Denikin’s struggle with the independent states of the South Caucasus under the slogan of “a united and indivisible Russia.” The critical attitude towards Tsarist General Denikin was due to the magazine’s promotion of Bolshevist ideas. The magazine covers issues such as peasant-landlord relations, a critical attitude towards issues such as bribery and robbery, exposing the actions of mullahs, criticizing the high prices and speculators in the country, and covering events in neighboring countries such as Iran and Georgia.

**Keywords:** *“Mashal” magazine, satirical press, Azerbaijan Democratic Republic, literature, social issues*

**Шахана Мамедова (Кочевник)**

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ И СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ В САТИРИЧЕСКОМ ЖУРНАЛЕ «МАШЭЛ» ХУДОЖЕСТВЕННЫЙ АНАЛИЗ ПРОБЛЕМ

Одной из тем, часто поднимавшихся в сатирической прессе начала XX века, было отражение тяжелых и изнурительных условий жизни и борьбы рабочих. Сатирический журнал «Машал», отличавшийся от других сатирических журналов большим освещением политических вопросов, стремился отразить тяжелые условия жизни и борьбы рабочего класса после установления власти Азербайджанской Демократической Республики. Однако журнал однобоко подошел к вопросу, проигнорировав меры, которые правительство АНР пыталось реализовать в этой сфере, и декларацию партии «Мусават», не дав ей должной оценки.

«Факел» отражал политические события, происходящие в мире, и разоблачал колониальную политику таких империалистических государств, как США, Англия и Франция. Одним из вопросов, который часто становился предметом критики в этом сатирическом журнале, была борьба царского генерала Деникина против независимых государств Южного Кавказа под лозунгом «единой и неделимой России». Критическая позиция в отношении царского генерала Деникина была обусловлена пропагандой в журнале большевистских идей. В журнале

освещаются крестьянско-помещичьи отношения, земельный вопрос, произвол скотоводов, критическое отношение к таким явлениям, как взяточничество и грабеж, разоблачение грязных дел мулл, критика высоких цен и спекулянтов в стране, освещение событий в соседних странах, таких как Иран и Грузия и т. д. Приводятся выпуски.

**Ключевые слова:** *журнал «Машал», сатирическая пресса, Азербайджанская Демократическая Республика, литература, социальные проблемы.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 13.01.2025**
**Son daxilolma tarixi:11.02.2025**